# Namaz

Müəllif: Ayətullah Xamenei
Mütərcim: İbrahim Mirzə

وَ الَّذينَ يُمَسِّكُونَ بِالْكِتابِ وَ أَقامُوا الصَّلاةَ إِنَّا لا نُضيعُ أَجْرَ الْمُصْلِحين

"Kitabdan (möhkəm) yapışanlar və namaz qılanlar (bilsinlər ki,) biz əməlisalehlərin mükafatını zay etmirik!"

Əraf surəsi, ayə 170.

## Giriş

Namaz və ibadət insanla Allah, məxluqla Xaliq arasında səmimi bir rabitədir. Namaz iztirablı, yorğun və bezikmiş ürəklərin təsəllisi, dincliyi, daxili saflıq və psixoloji rahatlıqdır. Namaz hərəkətin, səfərbərliyin və hazırlığın səmimi, qərəz və hiylədən uzaq əhdidir, hər bir çirkinliyi və pisliyi inkar ermək, hər bir yaxşılığa və gözəlliyə can atmaqdır. Namaz özünü yenidən dərk və sonra islah etmək üçün bir proqramdır. Qısası, namaz bütün yaxşılıqların mənbəyi və müəllifi olan Allahla daimi rabitə və mərhəmət diləyidir.

Nə üçün namazı vaciblərin ən üstünü və ən əhəmiyyətlisi saymışlar?

Nə üçün namazı dinin sütunu və əsası adlandırmışlar?

Nə üçün namazsız heç bir əməl qəbul olunmur?

Məgər namazda hansı qeyri-adi xüsusiyyət vardır?

Namazı müxtəlif cəhətlərdən araşdırmaq, dəyərləndirmək olar. Öncə İslam dünyagörüşündə əsas məsələlərdən olan insan yaranışının məqsədi mövzusuna bir qədər toxunmaq lazımdır.

İnsanın məxluq olmasına, onun qüdrətli və hikmətli bir qüvvə tərəfindən yaradılmasına etiqad zəruri olaraq onun yaranışında, var olmasında məqsədin olması deməkdir. Bu məqsədi "mənzil başına çatmaq üçün yol getmək" adlandıra bilərik: dəqiq xəritəyə uyğun və müəyyən vasitələrlə yol getmək, nəhayət, nəzərdə tutulan mənzil başına çatmaq. Bunun üçün həmin yerə çatan yolu tanımaq, təyin etmək və vəd verilmiş nəticəyə çatmaq üçün məqsədi daim diqqətdə saxlamaq lazımdır. Yola qədəm qoyan şəxs birbaşa hərəkət etməli, məqsədi həmişə yadda saxlamalı, çaşdırıcı yollar, əbəs hərəkətlər onu gecikdirməməli,

hərəkəti davam etdirmək və düzgün istiqaməti qorumaqdan ötrü onun üçün təyin edilmiş bələdçinin - Peyğəmbərin (s) sözündən çıxmamalıdır.

Bu məqsəd insanın sonsuz təkamülü və inkişafı, Allaha qayıdış, insanın yaxşı xislətlərinin, enerjilərinin və gizli istedadlarının aşkara çıxması, özünün, dünyanın və bəşəriyyətin xeyri üçün işlədilməsidir.

Deməli, insan Allahı tanımalı və onun inkişafı üçün göstərdiyi yolu öndə tutub gecikmədən və zəiflik göstərmədən hərəkət etməlidir.

Məqsədə yaxınlaşdıran işlər görmək, faydasız, yaxud zərərli işləri tərk etmək insanın həyatına məna verir, onu həyatının fəlsəfəsi yolunda irəliyə aparır. Əks təqdirdə, həyat nəticəsiz və məzmunsuz olar.

Başqa sözlə desək, həyat bir sinif və laboratoriyadır. Orada gözəl və ideal nəticə əldə etmək üçün dünyanı xəlq edən, ona həyat bəxş edən Allahın yaratdığı qanun və formullara uyğun işləmək lazımdır. Allahın sünnəsi və yaranışın qaydaları adlanan bu qanunları tanımaq, öz həyatını ona uyğunlaşdırmaq lazımdır. Buna görə, özünü tanımaq, öz ehtiyat və ehtiyaclarını müəyyən etmək də lazımdır. İnsanın üzərinə düşən böyük məsuliyyət və vəzifə budur. Bu elə bir vəzifədir ki, insan yalnız onu yerinə yetirdikdə ayıq və uğurlu hərəkətə qadir olar. Onsuz ya hərəkət edə bilməz, ya da məlumatsız və təbii ki, uğursuz olar.

Din məqsədi, istiqaməti, yolu və vasitəni təyin edib göstərməklə yanaşı, yolu qət etmək üçün lazım olan azuqəni və qüvvəni də insana bəxş edir. Bu yolun yolçularının xurcununda olan ən mühüm azuqə Allahı yad etməkdir.

Bu pərvazın güclü qanadları olan İstək, Ümid və Etimad Allahı yad etməyin nəticəsi və məhsuludur.

Allahı yad etmək bir tərəfdən Ona - yəni tükənməz yaxşılığa və kamala qovuşmaqdan ibarət olan məqsədi həmişə diqqətdə saxlayır, istiqamətin itməsinə mane olur, yolçunu yol və vasitəyə qarşı həssas və sayıq edir, digər tərəfdən ona ürək, həvəs və arxayınlıq bəxş edir, onu ruhdan düşməkdən və mənfi halların baş qarışdıran, yaxud təhlükəli aldatmalarından qoruyur.

İslam cəmiyyəti və hər bir müsəlman yalnız Allahı unutmayacağı təqdirdə İslamın təqdim etdiyi və bütün peyğəmbərlərin çağırdığı yolda möhkəm, dayanmadan, yaxud qayıtmadan addım ata bilər. Bu səbəbdən din müxtəlif vasitələrlə Allahın xatirəsini həmişə dindarların qəlbində yaşatmağa çalışır.

Allahın xatirəsi ilə dolu olan və insanı bütünlüklə Allahın zikrinə qərq edən, onu ayıq saxlayan və özünə gətirən, Allah yolçularını bir əlamət kimi düzgün xətt üzərində saxlayıb, karıxmaqdan və azmaqdan qoruyan, insanın həyatındakı qəflət anına mane olan əməllərdən biri namazdır.

İnsan onu əhatə edən qayğılar arasında nadir hallarda həyatın məqsədi, anların, saatların və günlərin keçməsi barədə düşünə bilir. Çoxlu gündüzlər gecə olur, növbəti günlər başlayır, həftələr və aylar ötür, lakin insan onların əvvəlinə və sonuna diqqət yetirmir, həyatın ötdüyünü, onun mənasını, yaxud puçluğunu hiss eləmir.

Namaz günün müxtəlif saatlarında bir oyanış zəngi və xatırlatmadır: insana proqram verir, ondan öhdəlik istəyir, gündüzünə-gecəsinə məna verir, ötən anların hesabını sorur, insanın başının qarışdığı, zamanın ötməsindən və ömrün bitməsindən xəbərsiz olduğu zaman onu çağırır, bir günün ötməsini və bir günün başlanmasını ona başa salır. Namaz deyir ki, fəaliyyət göstərməlisən, öhdənə daha böyük məsuliyyət götürməlisən, daha mühüm iş görməlisən, çünki əməl imkanı verilən ömrün bir hissəsi başa çatdı. Daha artıq çalışmaq və daha çox inkişaf etmək lazımdır, çünki məqsəd böyükdür. Fürsət bitmədən ona nail olmaq lazımdır.

Digər tərəfdən:

Maddi problemlərin təzyiqi altında məqsədi və istiqaməti unutmaq təbii bir məsələdir. Başqa bir tərəfdən, məqsədə çatmaq üçün insanın götürdüyü bütün öhdəlikləri hər gün vərəqləmək təxminən imkansız, peşəsi bundan ibarət olan şəxsdən eşitmək isə daha imkansızdır. Bundan əlavə, İslamın həyat və səadət bəxş edən bu məktəbinin və bütün istəklərinin ideallarını gün ərzində araşdırmaq

üçün kifayət qədər zaman əsla mövcud deyil və belə bir fürsət heç vaxt yaranmır.

Namaz bu məktəbin prinsiplərinin xülasəsini özündə ehtiva edir, düşünülmüş və nizamlı sözləri və hərəkətləri ilə İslamın simvolunu təşkil edir. Biz namazı ölkələrin himninə bənzədə bilərik; məna və yönəltmədəki fərqlə.

Bir ölkə öz prinsip və ideallarını xalqın beynində möhkəmlətmək, onları bu təfəkkür tərzi əsasında bərkitmək üçün onun qəbul etdiyi həyat formasının, ideallarının və məqsədlərinin xülasəsi olan himnini təkrarlamağı və söyləməyi vacib sayır. Onun təkrarı insanların bu fikir tərzində qalmalarına, bu ölkənin ardıcılları və o məqsədlərin izləyiciləri olduqlarını bilmələrinə səbəb olur. Çünki ölkələrinin prinsip və məqsədlərini unutmaq yolu dəyişdirmək və ondan yayınmaq deməkdir. Bu təkrarlar onları bu cəbhədə işləmək və xidmət göstərmək üçün hazırlayır, yetişdirir, xəritə və yolları onlara öyrədir, məsuliyyət və vəzifələri tanıtdırır, prinsipləri onların beynində canlandırır, vəzifəni müəyyən edir, sonra isə hərəkət etmək üçün onlara qorxmazlıq və cəsarət bəxş edir, fəaliyyətə hazırlayır.

Namaz İslam prinsiplərinin xülasəsi, müsəlmanlıq yolunun işığı, məsuliyyət, vəzifə, yol və nəticələrin göstəricisidir.

Günün əvvəlində, günorta və axşam vaxtı müsəlmanı çağırmaq, prinsipləri, yolu, məqsədi və nəticəni öz dili ilə ona anlatmaq və onu mənəvi güclə işə vadar etmək - namaz budur. Bu, mömini addım-addım və pillə-pillə kamil iman və əməl zirvəsinə yaxınlaşdırır, onu qiymətli və müsəlman qüvvə kimi yetişdirir. Bəli, "namaz möminin nərdivanıdır".[1]

İnsanın qarşısında uzun və çətin bir yol vardır. Bu yol onu həqiqi səadətə və qurtuluşa aparır. Getmək və ona çatmaq insanın yaradılmasının məqsədidir. Lakin insanın qarşısında qoyulan təkcə bu yol deyil, onun əsas yolu üzərində cığırlar, yayındırıcı yol və təhlükəli şoselər çoxdur. Onlar bəzən o qədər aldadıcı olur ki, əsas yolçunu çaşdırır və səhvə salır.

---

[1] "Bihar əl-ənvar", c. 82, səh. 303. Hədis Peyğəmbərdəndir (s).

Belə tərəddüdlərdən xilas olmaq üçün son məqsədə - yəni Allaha sarı gedən düzgün və davamlı istiqaməti qorumaq və yolun xəritəsini əldə etmək lazımdır. Namaz Allaha daim yadda saxlamaqdan, eləcə də əsas yolun ümumi xəritəsindən başqa bir şey deyil. Çünki möminin Allahla və İslam təfəkkürünün namazın sözlərində qeyd olunan xülasəsi ilə daimi ünsiyyətini təmin edir.

Beləliklə namazın hansı səbəbdən beş zamana bölünməsi və nə qədər əhəmiyyətə malik olması aşkara çıxır. Bu, cismin qidasının günün müxtəlif vaxtlarına bölünməsi kimidir.

Namazın özündə İslamın məqsədlərinin xülasəsini ehtiva etməsindən, namazda vacib bir əməl olan Quran oxunuşunun namaz qılanı Quranın bəzi məzmunları ilə tanış etməsindən və onu Quran məfhumları üzərində düşünməyə, Quranla fikir əlaqəsinə alışdırmasından[2] əlavə, onda olan hərəkətlərin məcmusu ilə İslamın kiçikmiqyaslı bir simvolu və əlamətidir.

İslam cəmiyyətdə insanların bədənini, düşüncəsini və ruhunu işə cəlb edir, bunların hər üçünü onların xoşbəxtliyi üçün işlədir. Bir fərdin əməlində olan namaz da eynilə belədir. Çünki namaz halında bədən, düşüncə və ruhun hər üçü işləyir və fəaliyyət göstərir.

**Bədən** - Əlin, ayağın və dilin hərəkətləri, əyilmək, oturmaq və torpağa düşmək;

**Düşüncə** - Ümumi məqsəd və vasitələrə işarə vuran, İslamın təfəkkür və baxış tərzini qısa şəkildə başdan-ayağa təkrarlamaqdan ibarət olan namazın məzmunları və sözləri barədə düşünmək;

**Ruh** – Allahı yad etmək, mənəviyyatla və pak ruhla pərvaz etmək, ürəyi veyillikdən və avaralıqdan saxlamaq, canda Allah qorxusunun və Ona təzimin toxumunu yetişdirmək.

Deyiblər ki, hər bir məzhəbin namazı o məzhəbin xülasəsidir. İslamın namazı da eynilə belədir. Ruhu və cismi, maddəni və mənanı,

---

[2] Fəzl İbn Şazanın İmam Əli İbn Musa Rzadan (ə) nəql etdiyi hədisə işarə olunur: "Vəsail əş-şiə", c. 6, səh. 38.

dünyanı və axirəti sözdə, məzmunda və hərəkətlərdə bir yerə toplamaq İslam namazının xüsusiyyətlərindəndir.

Müsəlman kamil bir namaz qılmaqla özünün bütün enerjisini öz inkişafı yolunda işlədir, bunun üçün eyni zamanda fiziki, psixoloji və düşüncə imkanlarından istifadə edir.

Namaz qılan insan məhz bütün qüvvəsi ilə Allah yolunun yolçusu olduğuna görə özündə və ətrafında olan şər, fəsad və süqut amillərini təsirsiz edir. Quranın bir neçə ayəsində namazı bərpa etmək dindarlığın əlamətlərindən biri sayılmış və çoxlu ayələrdə bunun üzərində xüsusi təkid göstərilmişdir.

Belə nəzərə çarpır ki, namazı bərpa etmək namaz qılmaqdan daha geniş bir işdir. Yəni təkcə fərdin özünün namaz qılması demək deyil, həm də namazın istiqamətinə, onun dəvət etdiyi istiqamətə doğru yola çıxmalı, digərlərini də o yola çıxarmalıdır. Namazı bərpa etmək, güman ki, insanın lazımi səyi göstərib özünün və digərlərinin ətraf mühitini namaz qılan, yəni Allahı axtaran və Allaha pərəstiş edən mühit etməsi, hamını namaz xəttində və istiqamətində yola çıxarmasıdır.

Deməli, mömin şəxs, yaxud mömin cəmiyyət namazı bərpa etməklə özündə və ətraf mühitində günahın və fəsadın kökünü qurudur, günah hissini, onun daxili və xarici səbəblərini, yəni nəfsi və günahın ictimai amillərini zərərsizləşdirir. Şübhəsiz, namaz fərdi və cəmiyyəti pis və xoşagəlməz işlərdən saxlayır.[3]

Həyatın keşməkeşli mübarizə səhnəsində şeytan qüvvələrinin bütün imkanları ilə hər yerdə və hər bir şəxsdə yaxşılıq hissini yox etməyə çalışdığı yerdə, hücuma məruz qalan ilk qala insanların əzm və iradəsidir. Çünki bu möhkəm hasarı götürməklə, insan şəxsiyyətinin qalasını - zati dəyərlərinin, qiymətli elm və bilgi sərvətlərinin xəzinəsini zəbt və talan etmək mümkündür. Zaman və tarix üçün yeni sözü və proqramı olanlar bu hücuma hamıdan artıq məruz qalır, bu polad qalanın – məğlubedilməz iradə qalasının qorunmasına hamıdan artıq ehtiyaclıdırlar.

---

[3] Ənkəbut/45

Allah zikrini təlqin və təkrar etməklə azması mümkün olan məhdud bəşəri Hüdudsuz və Hakim Allaha bağlayan, Ona söykəyən, dünyanın idarəçisinə birləşdirməklə ona hüdudsuz və tükənməz qüvvə bəxş edən İslam namazı, insan zəifliyinin ən yaxşı müalicəsi, əzm və iradənin ən təsirli dərmanı sayılmalıdır.

İslamın möhtəşəm inkişafı ərəfəsində, hər yeri bürüyən cahiliyyətə qarşı öz üzərində ağır vəzifə və məsuliyyət hiss edən əziz Peyğəmbərə (s) gecə yarısının namazı və zikri fərman verildi:

يـا أيـُّهَـا الـْمُـزّمّـِل قـُمِ الـلّـيْـلَ إلاّ قَـلـيـلا نِـصْـفَـهُ أو انـْقـُصْ مِـنـْهُ قَـلـيـلاً أوْ زِدْ عَـلَـيْـهِ وَ رَتِّـل الـْقـُرْآنَ تَـرْتـيـلا إنـّا سَـنُـلْـقـي عَـلَـيْـكَ قَـوْلاً ثَـقـيـلا[4]

*Ey (libasına) örtünüb bürünən (Peyğəmbər)! Gecəni – az bir hissəsi istisna olmaqla – qalxıb (namaz qıl)! (Gecənin) yarısına qədər, yaxud bir qədər ondan az, və ya bir qədər ondan çox! Həm də (gecə ibadət etdiyin zaman) aramla (ağır-ağır) Quran oxu! Həqiqətən, Biz sənə ağır bir kəlam vəhy edəcəyik.*

İndi namazın məzmununu araşdırmağa başlayırıq. Bu araşdırmada izahlı tərcümə səviyyəsindən dərinə getməməyə, təlim baxımından namazın məqsədinə bir addım yaxınlaşmağa çalışacağıq.

Namaz Allahın adı ilə başlayır - Onun əzəmətini, böyüklüyünü və insanın düşüncə zirvəsinin fövqündə durduğunu xatırlatmaqla:

## Allahu Əkbər

**الله اكبر**

Allah böyükdür!

Namaz qılan bu cümlə ilə öz ibadətinə başlayır və möhtəşəm bir əməl üçün təntənə dolu bir başlanğıc yaradır.

---

[4] Muzzəmmil/1-5.

Allahu Əkbər – Allah böyükdür; vəsfə sığandan daha böyükdür; tarixin tanrıları ilə müqayisə olunmaqdan daha böyükdür; insanın qorxması, yaxud tamahlanması mümkün olan bütün güclərdən və bütün əlamətlərdən daha böyükdür; Onun yaranış qanunlarını poza bilən şəxsdən daha böyükdür.

Allahın bəndəsi bu qanunları tanısa və onlara diqqət yetirib öz fəaliyyət yolunu və istiqamətini seçsə, Allahın böyüklüyünü xatırlamaqdan böyük güc alıb, çox ümidvar olacaq, tam şəkildə hiss edəcək ki, səyi uğurlu və nəticəli, işi yaxşıdır. O öz gələcəyinə və yoluna nikbin olacaq və ümidlə baxacaq.

Bu cümləni dedikdən sonra namaz qılan əməli surətdə namaz halına daxil olur. Gərək ayaq üstə Həmd surəsini və ondan sonra Quranın bir surəsini axıracan oxusun.

## Həmd surəsi

**بِسْمِ اللّهِ الرَّحْمنِ الرَّحيم - Bismillahir-Rəhmanir-Rəhim.**

Rəhman və Rəhim Allahın adı ilə.

Ümumi mərhəmətə malik olan və daim mərhəmət bəxş edən Allahın adı ilə.

Bu cümlə Quranın bütün surələrinin, namazın və bir müsəlmanın bütün iş və fəaliyyətlərinin başlanğıcıdır. Yəni bütün işlər yalnız Allahın adı ilə başlaya bilər. İnsanın hər bir işi - həyatının və həyatda olmasının bütün cəhətləri Allahın adı ilə başlaya bilər. Müsəlman gününü Allahın adı ilə başlayır və gündəlik fəaliyyətinə Onun adı ilə son qoyur. Onun zikri ilə yatağa girir və Ondan kömək diləməklə yataqdan qalxıb gündəlik fəaliyyətinə başlayır. Və nəhayət, Onun adı, Onun xatirəsi ilə dünyaya göz yumur və əbədi evə yollanır.

**اَلْحَمْدُ لِلّهِ رَبِّ الْعالَمين - Əlhəmdu lillahi Rəbbil-aləmin.**

Həmd və səna aləmlərin və aləmdəkilərin Rəbbi olan Allaha məxsusdur.

Bütün sitayiş və təşəkkürlər Ona məxsusdur. Çünki bütün əzəmətlər Onun və bütün mərhəmətlər Ondandır. O bütün bəyənilmiş xislətlərin sahibidir. Bütün yaxşılıqlar və yaxşı işlər Onun varlığından qaynaqlanır. Deməli, Ona sitayiş etmək yaxşılıqlara və yaxşı işlərə sitayiş etməkdir, yaxşı niyyətlə göstərilən bütün fəaliyyətlərə istiqamət verəndir.

Kim özündə təqdirəlayiq xüsusiyyət və rəftar görürsə, onu Allahın mərhəmət və lütfündən bilməlidir. Çünki insanda yaxşılıq amillərini

işlətmiş, onun təbiətini yaxşılığa və dəyərə hazırlıqlı, axtarışlı və meylli etmiş, ona yaxşı olmaq və yaxşılıq etmək yolunda başqa bir vasitə olan qərar qüvvəsi bağışlamışdır.

Bu baxış xudbinlik və xudpəsəndlik yolunu bağlayır. Həmçinin insan vücudunda olan yaxşı xislətlərin və yaxşılıqetmə bacarıqlarının istifadəsiz qalmasının, yaxud əbəs yerə sərf olunmasının qarşısını alır.

"Rəbbil-aləmin" (aləmlərin və aləmdəkilərin Rəbbi və idarəçisi) ifadəsində həm digər aləmlərin və dünyaların varlığı, həm də bunların hamısının bir-birilə qohumluğu və bağlılığı hiss olunur. Namaz qılan dərk edir ki, onun dar və məhdud mənzərəsinin, öz həyatı üçün fərz etdiyi bu hasarın arxasında başqa aləmlər və dünyalar var. Onun Allahı bu əzəmətli aləmlərin hamısının sahibidir. Bu hiss onda olan dar baxışları və yaxıngörmələri yox edir, ona hərəkət cəsarəti və hissi bəxş edir, Allaha bəndə olmaqdan dolayı qürur hissi yaradır, Allah bəndəliyini ona çox əzəmətli və möhtəşəm göstərir.

Digər tərəfdən görür ki, bütün varlıqlar – insanlar, heyvanlar, bitkilər, cansız əşyalar, varlığın saysız-hesabsız səmaları və aləmləri Allahın bəndələridir. Onların hamısının Rəbbi, idarə edəni və Pərvərdigarı Odur. Dərk edir ki, Allahı yalnız onun irqinin, xalqının, yaxud insanların tanrısı deyil, xırda qarışqanın, zəif otun da Allahıdır, səmaların, kəhkəşanların və ulduzların da Rəbbidir. Bu həqiqəti dərk edərək yalqız olmadığını hiss edir. Dünyanın bütün zərrələri, bütün xırda və iri varlıqları ilə qohum olduğunu, bütün insanlarla rabitədə olduğunu anlayır. Hamı qardaş və Ona sarı yolçulardır. Bu böyük karvan bütünlüklə bir məqsədə sarı hərəkət edir.

Bu rabitə və bağlılıq onu bütün yaranmışlara qarşı vəzifəli və öhdəçi edir; insanlara qarşı hidayət və kömək öhdəliyi, digər varlıqlara qarşı tanımaq, düzgün məqsədlə və yaranışın məqsədlərinə uyğun yolda işlətmək öhdəliyi.

**الرّحْمن الرّحيم - Ər-Rəhmanir-Rəhim.**

Rəhman və Rəhim Allah

Onun ümumi rəhməti yaradıcı qüvvələr, həyat bəxş edən qanunlar və davamlı enerjilər formasında bütün məxluqları əhatə edir. Hər bir şey və hər bir şəxs ölüm anına və yox olana qədər bu rəhmətdən bəhrələnir (bu, Rəhman sifətidir). Digər tərəfdən, xüsusi rəhməti, hidayət və lütf rəhməti, mükafat və şəfqət rəhməti layiqli bəndələrə və saleh insanlara şamil olur. Bu növdən olan rəhmət bu dəyərli və şərafətli varlıqların vücudunda ölümə qədər, ölümdən sonra qiyamətə və insanın son mənzilinə qədər aydın bir xətt kimi onlarladır (bu, Rəhim sifətidir). Deməli, Allah ümumi və müvəqqəti rəhmət, bir də həmişəlik və xüsusi rəhmət bəxş edəndir.

Quranın girişində, namazın və hər surənin əvvəlində Rəbbin rəhmət xüsusiyyətini yad etmək göstərir ki, lütf və mərhəməti yaranış və varlıq aləmində Onun ən bariz atributudur. İnadkarlara, fəsad törədənlərə məxsus olan qəzəbinin və əzabının əksinə olaraq, Onun rəhməti hamıya şamil olur və hər yeri əhatə edir.[5]

**مالِكِ يَوْمِ الدِّين - Maliki yəumid-din.**

Cəza gününün maliki və ixtiyar sahibi olan Allah

Cəza günü son gün və aqibətdir. Hamı aqibət üçün çalışır. Allahsız materialist də, Allaha pərəstiş edən insan da aqibət və nəticə yolunda hərəkət etmək baxımından eynidirlər. Fərq bundadır ki, hər biri aqibəti bir cür dərk edir.

Materialistin aqibəti bir saat, bir gün və bir neçə il sonra, qocalıq və yaşlılıq zamanıdır. Allaha pərəstiş edənin baxışı isə geniş və nəzər dairəsi bundan böyükdür. Onun nəzərində dünya məhdud, bağlı və hasarlı deyil. Onun dünyası geniş, gələcəyi hüdudsuzdur. Bu, tükənməz ümidə və yorulmaz fəaliyyətə səbəb olur. Ölümü ümidin kəsilməsinə səbəb bilməyən, ölməklə mükafatı və işin nəticəsini gözləməyi əldən verməyən şəxs əvvəldəki həvəs və fəallıqla özünün Allah bəyənən əməlini və işini həyatının son anına qədər davam etdirə bilər. Qiyamət və cəza günündə malikin və ixtiyar sahibinin Allah olduğunu

---

[5] Əraf/156.

xatırlamaq, namaz qılana düzgün istiqamətlənmək bacarığı bəxş edir, onun əməl və fəaliyyətlərinə ilahi istiqamət verir, həyatı və həyatda olmasının bütün cəhətləri Allah üçün və Allah yolunda olur. Onun hər bir şeyi və hər bir işi bəşəriyyətin təkamülü və yüksəlişi yolunda işlədilir. Bu, Allahın bəyəndiyi yeganə yoldur. Digər tərəfdən, əbəs gümanlara və əsassız ümidlərə arxalanmağı ondan alır, onda əmələ həqiqi ümidi gücləndirir. Əgər bu yolda gedişlər, səhv və azdırıcı quruluşlar zəif və fürsət axtaran şəxslərə cəfəngiyatla, riya, yalan və hoqqabazlıqla özlərinə şərait qurmalarına, əməlsiz və işsiz mükafat almalarına icazə vermişsə də, tam ixtiyar sahibinin və bütün işlərin başında duranın elmli və ədalətli Allah olduğu o biri aləmdə hoqqabazlıq və hiylə mümkün deyil və heç kəs üçün əməlsiz bəhrələnmək və mükafat almaq imkanı yaranmayacaq.

Burada Həmd surəsinin birinci yarısı – aləmlərin və aləmdəkilərin Rəbbinin sitayişini və Allahın bəzi mühüm sifətlərini ehtiva edən hissəsi bitdi. Bəndəlik bildirməkdən və hidayət istəməkdən ibarət olan ikinci yarısı İslamın ideologiyasının bəzi mühüm xətlərinə səlis işarələr vurur.

**إِيَّاكَ نَعْبُدُ - İyyakə nəbudu.**

Yalnız Sənə ibadət edirik.

Yəni bizim bütün vücudumuz, bütün fiziki, ruhi və düşüncə imkanlarımız Allahın ixtiyarında, Onun fərmanı altında və Onun üçündür.

Namaz qılan bu cümlə ilə öz əl-qolundan və boynundan Allahdan qeyrisinin bəndəlik kəməndini açır, allahlıq iddialarını rədd edir; tarix boyu həmişə cəmiyyətlərin təbəqə bölgüsünə səbəb olan və bəşərin əksəriyyətini bəndəlik və məzlumluq zəncirində əsir saxlayan tanrılıq iddialarını inkar edir; özünü və Allaha inananların hamısını Allahdan qeyri hər bir kəsin və ilahi quruluşdan başqa hər bir quruluşun itaət və fərman sərhədindən üstün tutur; qısası, Allahın bəndəliyini qəbul etməklə bəndələrin bəndəliyindən uzaqlaşır və bu yolla özünü həqiqi təkallahlıların sırasına qoşur.

İbadətin yalnız Allah qarşısında və Allah üçün olmasını qəbul və etiraf etmək İslamın və ilahi ayinlərin ən mühüm ideoloji və praktiki prinsiplərindən biridir. Buna Allahın inhisarlı allahlığı deyilir. Yəni tanrı (məbud) olmağa layiq olan yalnız Allahdır, Allahdan başqa heç kəs ibadət olunmamalıdır.

Bu həqiqəti düzgün anlamayan, bu barədə yanlış və məhdud təsəvvürü olan və bu üzdən bilmədən Allahdan başqasının bəndəliyinə uğrayan şəxslər həmişə olmuşdur. Bunlar düşünmüşlər ki, Allahın ibadəti yalnız Onu müqəddəs saymaq və Ona pərəstiş etməkdir və yalnız Allah dərgahına namaz qılıb ibadət etdiklərindən, Allahdan qeyrisinə ibadət etmədiklərinə əmin olmuşlar.

Quran və hədis terminologiyasında ibadətin geniş mənasını anlamaq bu gümanın əsassız olduğunu ortaya qoyur. Quran və hədis terminologiyasında ibadət sözünün mənası budur: Hər hansı məqam və qüvvə tərəfindən insana göstərilən və məcbur edilən fərmanın, qanunun və quruluşun qarşısında mütləq itaət və təslimçilik - istər bu təslimçilik və itaət müqəddəs saymaq və pərəstiş hissi ilə birgə olsun, istər olmasın.

Buna əsasən, hər hansı bir qeyri-ilahi qüvvənin quruluşlarını, qanunlarını və fərmanlarını rəğbət və təslimçiliklə qəbul edən bütün şəxslər o quruluşların və onların banilərinin ibadətçiləri və bəndələri olurlar. Əgər bununla yanaşı ilahi qanunlar üçün də bir yer ayırmış, fərdi və ictimai həyatın hansısa bir sahəsində Allahın qanununa və fərmanına əməl etmiş olsalar da, müşrik – yəni Allahla birgə başqa bir kəsə də ibadət edənlər olacaqlar. Əgər həmin hissəni də Allah üçün ayırmasalar, kafir – yəni Allahın varlığının aşkar və parlaq həqiqətini görməzdən gələn, etiqadda, yaxud əməldə onu inkar edən şəxs sayılacaqlar.

İslamın bu baxışına əsasən, asanlıqla anlamaq olar ki, öz dəvətlərinin ilk şüarını "la ilahə illəllah" – yəni "Allahdan başqa heç bir tanrı yoxdur"[6] seçən ilahi dinlər nə demiş, nə istəmiş, nə ilə və kiminlə tərəf olmuşlar.

---

[6] Bax : Əraf/59–158; Hud/50–84.

Bu həqiqət – ibadətin əsl mənası İslam ədəbiyyatında, Quran və hədislərdə o qədər geniş və aydın bəyan olunmuşdur ki, düşüncəli və ağıllı adamlar üçün azca tərəddüdə də yer qalmır. Nümunə üçün Quranın iki ayəsi və İmam Sadiqdən (ə) bir hədislə kifayətlənirik:

اتَّخَذُوا أَحْبارَهُمْ وَ رُهْبانَهُمْ أَرْباباً مِنْ دُونِ اللّهِ وَ الْمَسيحَ ابْنَ مَرْيَمَ وَ ما أُمِرُوا إِلاّ لِيَعْبُدُوا إِلهاً واحِداً لا إِلهَ إِلاّ هُو[7]

*Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar (rəblər) qəbul etdilər. Halbuki onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu. Ondan başqa heç bir tanrı yoxdur.*

الّذينَ يَسْتَمِعُونَ الْقَوْلَ فَيَتَّبِعُونَ أَحْسَنَهُ أُولئِكَ الّذينَ هَداهُمُ اللّهُ وَ أُولئِكَ هُمْ أُولُوا الأَلْباب[8]

*Tağuta (şeytana, bütlərə) ibadət etməkdən çəkinib tövbə edərək Allaha tərəf qayıdanları müjdə gözləyir.*

Əbu Bəsirin İmam Sadiqdən (ə) rəvayət etdiyi hədisə əsasən, o həzrət öz dövrünün həqiqi şiələrinə buyurdu: "Tağutun ibadətindən boyun qaçırmış şəxslər sizlərsiniz. Kim zalıma itaət göstərsə, ona ibadət etmişdir".[9]

**وَ إِيّاكَ نَسْتَعين - Və iyyakə nəstəin.**

Yalnız Səndən yardım istəyirik.

Sənin rəqiblərindən və allahlıq iddiası edənlərdən heç bir yardım və kömək unmuruq. Onlar Allahın itaəti altına girmədiklərinə görə Allah yolunun yolçularına və bəndələrə də kömək etməyəcəklər. Allahın yolu Allahın peyğəmbərlərinin yolu, bütün insanlar arasında qardaşlıq, birlik, ictimai yaşayış, həqiqət və ədalət istiqamətində, insana dəyər vermək, ayrıseçkilikləri, zülmləri və bərabərsizlikləri rədd etmək amalına doğru bir qaçışdır. Özlərinin rəzil həyatlarını və qəsb etdikləri imkanları bu prinsipial dəyərlərin hamısını məhv etməyə yönəltmiş

---

[7]Bəraət/31.
[8]Zümər/18.
[9] "Nur əs-səqəleyn" təfsiri, c. 5, səh. 481.

Allah rəqiblərinin və allahlıq iddiaçılarının Allah bəndələrinə kömək etmələri mümkündürmü?! Onların Allah bəndələri ilə barışmaz müharibələri, onlara qarşı amansız qəzəbləri vardır. Deməli, yalnız Allahdan – Onun bizə verdiyi ağıl və iradə gücündən, həyatda olmaq və yaşamaq üçün bizə verdiyi vasitə və imkanlardan, təbii və tarixi ənənələrindən və qanunlarından yardım umuruq. Bu qanunlar öyrənilsə, düşüncə və əməl bələdçisi ola bilərlər. Həmçinin Onun qüdrətinin güclü əsgərlər kimi bəşərin xidmətində duran bütün məhsullarından yardım umuruq.

**اهْدِنَا الصِّرَاطَ الْمُسْتَقِيمَ - İhdinəs-siratəl-mustəqim.**

Bizi doğru yola hidayət et!

Əgər insanın hidayətdən daha həyati və üstün ehtiyacı olsaydı, şübhəsiz, Quranın girişində və namazın mühüm hissəsi olan Həmd surəsində o ehtiyac dua dili ilə deyilər və Allahdan istənərdi.

Ağıl və təcrübə yalnız ilahi hidayətlə birgə və düzgün, faydalı və çətinlikləri həll edən yolda işlədilir. İlahi hidayət olmasa, həmin ağıl və təcrübə bir oğru əlindəki çırağa, yaxud dəlinin əlindəki xəncərə çevrilər. Doğru yol fitri proqramdır; insanın təbii ehtiyaclarının, çatışmazlıqlarının, imkanlarının düzgün hesablanaraq onun üçün nəzərdə tutulmuş bir proqramdır; Allah peyğəmbərlərinin xalqın üzünə açdığı, özlərinin ilk yolçuları olduğu yoldur. Elə bir yoldur ki, bəşər o yola çıxdıqda düz yerdə axan su kimi öz-özünə heç bir gücün müdaxiləsi olmadan insan ucalığının tükənməz dəryasından ibarət mənzil başına sarı irəliləyir. Elə bir proqramdır ki, əgər insanların həyatında ictimai bir sistem kimi icra olunsa və həyata keçsə, onlar üçün rifah, sabitlik, azadlıq, əməkdaşlıq, məhəbbət və qardaşlığı ərməğan edəcək, bəşəriyyətin bütün köhnə dərdlərinə son qoyacaq.

Lakin bu yol və bu proqram nədir? Bu qarışıq bazarda hər kəs iddiaçıdır, hər bir qrup digərlərini yanlış sayır. Gərək bu qısa girişə layiqli işarədən sonra Quranın doğru bildiyi yol müəyyən olunsun.

**صِراطَ الّذينَ أنْعَمْتَ عَلَيْهِم - Siratəl-ləzinə ənəmtə ələyhim.**

Nemət verdiyin şəxslərin yoluna.

Allahın neməti kimlərə verilmişdir? Şübhə yoxdur ki, nemətdə məqsəd mal, məqam və maddi imkanlar deyil. Bunların ən görkəmli sahibləri həmişə Allahın və xalqın ən yırtıcı düşmənləri olmuşlar. Məqsəd bu oyuncaqlardan daha böyük bir nemət olan Allah lütfü, mərhəməti, hidayəti, özünün həqiqi dəyərini yenidən tanımaq və özünü yenidən dərk etməkdir.

Quranın başqa bir yerində bu nemətdən bəhrələnən şəxslər təqdim olunmuşdur:

وَ مَنْ يُطِعِ اللّهَ وَ الرّسُولَ فَأُولئِكَ مَعَ الّذينَ أنْعَمَ اللّهُ عَلَيْهِمْ مِنَ النّبِيّينَ وَ الصِّدِّيقينَ وَ الشُّهَداءِ وَ الصّالِحينَ[10]

*Allaha və Peyğəmbərə itaət edənlər Allahın nemətlər verdiyi peyğəmbərlər, siddiqlər[11], şəhidlər və salehlərlə (yaxşı əməl sahibləriylə) bir yerdə olacaqlar.*

Deməli, namaz qılan bu cümlədə Allahdan istəyir ki, onu peyğəmbərlərin, siddiqlərin, şəhidlərin və salehlərin yoluna hidayət etsin. Bu isə tarixdə aydın bir xətt, məqsədi müəyyən, yolçuları məşhur və bəlli olan aşkar bir yoldur.

Onun qarşısında başqa bir xətt də var. O və onun yolçuları da bəllidir. Namaz qılan həmin yolu və onun yolçularını da xatırlayıb özünü qorxudur ki, o yola qədəm qoymasın, ona sarı getməsin. O bu məsələni qabaqkı duanın davamında dilə gətirir:

**غَيْرِ الْمَغْضُوبِ عَلَيْهِم - Ğəyril-məğzubi ələyhim.**

Sənin qəzəbinə düçar olmuş şəxslərin yoluna yox.

Kimlər Allahın qəzəbinə düçar olmuşlar? Allahın yolu qarşısında başqa bir yola qədəm qoyan, avam, iradəsiz və zəif xalqı, yaxud ayıq və iradəli, lakin qolubağlı və əsir xalqı da özü ilə o tərəfə çəkən şəxslər.

[10] Nisa/69.

[11] Əməldə öz iman iddialarını sübuta yetirmiş, Allahı və Peyğəmbəri (s) əməli surətdə təsdiq etmiş şəxslər.

Tarix boyu hakimiyyəti zorla, güclə, yaxud hiylə və kələkbazlıqla əlinə almış, onları ixtiyarsız varlıqlara, alətlərə və gücsüz ardıcıllara çevirmiş, insanları axmaq yerinə qoymaqla və onları məcbur etməklə özlərinin çirkin və rəzil eyş-işrətlərinə imkan yaratmış şəxslər, başqa sözlə desək, batil yolunu cəhalət və xəbərsizlik üzündən yox, inadkarlıq, xudpəsəndlik və təkəbbürlülük üzündən gedənlər Allahın qəzəbinə gəlmişlərdir.

Tarixdə bu qrupu yüksək təbəqələr və dünyəvi güclər təşkil etmişlər. Dini amallar həmişə onların varlıq fəlsəfəsi üzərindən çarpaz xətt çəkmiş və ilk olaraq onlara hücum etmişdir. Bu iki qrupdan – hidayət olunmuşlar və qəzəbə gəlmişlərdən başqa üçüncü qrup da var, onların yolu da sonda qəzəbə düçar olmuşların yolu ilə bitir.[12] Sonrakı cümlə onlar haqdadır:

**وَ لاَ الضّالِّين - Vələz-zaallin.**

Yolunu azmışların yoluna yox.

Xəbərsizlik və məlumatsızlıq üzündən azğın rəhbərlərini yamsılayaraq Allahın və həqiqətin yolundan başqa bir yolla gedən, düzgün və doğru yolda addımladıqlarını güman edən, əslində isə təhlükəli bir cığırla acı sonuca sarı addım atan şəxslər.

Tarixdə bu qrupu da aydın şəkildə görmək olar. Bunlar cahil quruluşlarda gözübağlı və başıaşağı şəkildə rəhbərlərin istək və iradəsinin davamçısı olmuş, onların xeyrinə haqq-ədalət carçılarını və Allahın dinini gətirənləri günahlandırmış və hətta bəzən onların qarşısında dayanmış, bu ağılsız mövqelərinə hətta bir an da yenidən baxmamış bütün şəxslərdir.

Bu mövqeyi ona görə ağılsız adlandırıram ki, birbaş yüksək təbəqələrin xeyrinə və yolunu azmışların özlərinin ziyanınadır. Əksinə, qəzəbə düçar olmuş qrupun heysiyyətinin və varlığının kökünü qazmaq istəyən peyğəmbərlərin dəvəti isə, təbii ki, məhrum, məzlum, o

---

[12] Bu məsələ Quranın bir neçə ayəsində çox mənalı şəkildə bəyan olunmuşdur. O, cümlədən: Şüəra/91-101; İbarihim/21-22; Sad/59-61; Qafir/47-48.

cümlədən axmaq yerinə qoyulmuş bu azğın təbəqələrin xeyrinə olmuşdur.

Namaz qılan bu iki yolu – qəzəbə düçar olmuşların və yolunu azmışların yolunu yada salıb özündə getməli olduğu yola və peyğəmbərlərin xilasedici dəvəti qarşısında tutmalı olduğu mövqeyə qarşı həssaslıq və diqqət yaradır. Sonra əgər öz həyatında inkişaf və yolu tapmaq əlaməti görsə, yenidən böyük nemətə şükür məqsədilə Allaha həmd və sitayiş edib deyəcək: الْحَمْدُ لِلَّهِ رَبِّ الْعالَمِين - Əlhəmdu lillahi Rəbbil-aləmin.[13]

Beləliklə namazın mühüm bir hissəsi başa çatır.

Bu oxunan Fatihə surəsi Quranın başlanğıcı idi.

Hər bir kitab kimi Quranın girişi də bu kitabın bilgilər məcmusunun ümumi şəklini göstərir. Namaz İslamın xülasəsi və kiçik təsviri olduğundan və onda İslam ideologiyasının dəyərli cəhətlərinin çoxusuna işarə vurulduğundan, Fatihə surəsi də Quran bilgilərinin dəyərli nöqtələrinin və əsas xətlərinin siyahısı olub, onun aşağıdakı mühüm göstərişlərinin xülasəsini ehtiva edir:

Aləmlər və aləmdəkilər bütöv bir vahiddir və bütünlüklə Allaha məxsusdurlar: Rəbbil-aləmin;

Hər bir şey və hər bir şəxs Allahın məhəbbət və şəfqətini görür, möminlər isə Onun xüsusi mərhəmətinə şamil olurlar: Ər-Rəhmanir-Rəhim;

İnsanın həyatı bu dünyadan sonra da davam edəcək və orada mütləq hakimiyyət Allaha məxsus olacaq: Maliki yəumid-din;

İnsan Allahdan qeyrisinin bəndəliyindən qurtulmalı, Allahın idarəsi sayəsində, insani xüsusiyyətlərlə və insaniyyət yolunda azad və ixtiyarlı şəkildə yaşamalıdır: İyyakə nəbudu:

Həyatın doğru yolunun səadət bəxş edən proqramını Allahdan istəməli və almalıdır: İhdinəs-siratəl-mustəqim;

[13] Həmd surəsinin sonunda bu cümləni demək müstəhəbdir.

Düşmən və dostların cəbhəsini, onların hər birinin mövqeyini və məqsədlərini tanımaq və hər bir cəbhə qarşısında öz imanına uyğun mövqe seçmək lazımdır: Siratəl-ləzinə.

## Surə

Bu öyrədici və məzmunlu sitayiş bitəndən sonra Quranın tam bir surəsi oxunmalıdır.

Bu iş Quranın azad şəkildə və ürəyinin istəyi ilə seçdiyi bir hissəsini insanın zehnində canlandırır, yəni qarşısında İslam bilgilərinin başqa bir fəslini açır.

Namazda Quran oxumağın vacib edilməsi, İmam Əli İbn Musanın (ə) bir hədisdə Fəzl İbn Şazana buyurduğu kimi, onu tərk olunmaqdan və anlaşılmaz qalmaqdan çıxarıb xatirələrdə və zehinlərdə canlandırır.

Burada biz adətən namazlarda oxunan Tövhid surəsinin tərcüməsi ilə kifayətlənirik:

**بِسْمِ اللّهِ الرّحْمنِ الرّحيم - Bismillahir-Rəhmanir-Rəhim.**

Rəhman və Rəhim Allahın adı ilə.

**قُلْ - Qul.**

De! (Ey Peyğəmbər!)

Özün bil və lazımi bir söz kimi digərlərinə də çatdır ki:

**هُوَ اللّهُ أحَد – Huvəllahu əhəd.**

Allah birdir.[14]

Dinlərin təhrif olunmuş etiqadlarını tanıtdıran tanrılar kimi şəriki, rəqibi və bərabəri yoxdur. Deməli, xilqət aləmi tanrıların çəkişmə və müharibə meydanı deyil. Dünyanın bütün qanunları bir iradədən və bir qüvvədən qaynaqlanır. Buna görə yaradılış dünyasında nizam-intizam, harmoniya və uyğunluq vardır. Dünyanın qanunları, təbii dəyişiklikləri və hərəkətləri bütünlüklə bir istiqamətdə işləyir və hərəkət edir. Bu arada yalnız iradə, ixtiyar və qərar qüvvəsi verilən insan bu ümumi

---

[14] Yaxud "Allah birdir".

nizamdan boyun qaçıra, yayına və uyğunsuz bir saz kimi ayrı hava çala bilər. O həmçinin öz həyatını bu qanunlara tam uyğun şəkildə qura da bilər.

**اللّٰهُ الصّمَد – Allahus-səməd.**

Allah hər cəhətdən (hər şeydən və hər kəsdən) ehtiyacsızdır.

Yəni mənim qarşısında təzim və sitayiş etdiyim Allah, xəyali tanrılar kimi deyil ki, yaranması, həyatı, olmaq və yaşamaq bacarığı kiminsə köməyinə və baxıcılığına ehtiyaclı olsun. Elə tanrı insanın hörmətinə və təziminə layiq deyil. Çünki özü insan səviyyəsində, yaxud ondan da əskik bir varlıqdır. Əzəmətli və güclü varlıq olan insanın təziminə, sitayişinə və bəndəliyinə yalnız elə bir qüvvə layiqdir ki, heç bir varlığa və heç bir amilə ən kiçik ehtiyacı belə olmasın, qüdrətliliyi və əbədiliyi onun özündən qaynaqlansın.

**لَمْ يَلِد – Ləm yəlid.**

Doğmayıb və dünyaya övlad gətirməmişdir.

O, təhrif edilmiş dinlərin və müşrik etiqadların xəyal və xurafatlarında tanıtdırılan deyil. Məsihilərin və müşriklərin xəyali tanrısı deyil ki, övladı, yaxud övladları olsun. O hər bir şeyi və hər bir kəsi yaradan Xaliqdr, onların atası deyil. Göylərdə və yerdə yaşayanların hamısı Onun bəndələridir, övladları yox.

İnsanla Allah arasında olan bəndə və Rəbb nisbəti Allahın həqiqi bəndələrini Ondan qeyri bir şeyin və şəxsin bəndəliyindən saxlayır. Çünki iki ərbabın qulu olmaq mümkün deyil.

Allahı məxluqların mehriban atası və insanları Onun övladları güman edən, Allahla xalq arasındakı bəndə və Rəbb nisbətini insana, onun məqamına və ucalığına layiq bilməyən şəxslər əslində Allahdan qeyrisinin bəndəliyi üçün yol açmış və özləri əməldə dünyanın mürüvvətsiz ərbablarının bir çoxunun bəndəsi və aləti olmuşlar.

**وَ لَمْ يُولَد – Və ləm yuləd.**

Özü doğulmamışdır.

O elə bir varlıq deyil ki, bir gün olmayıb və sonra varlıq aləminə qədəm qoymuş olsun. Nə kiminsə övladıdır, nə bir düşüncənin, yaxud xəyalın övladıdır, nə bir quruluşun, təbəqənin və bəşər həyatının formalarından birinin övladıdr. O ən dəyərli və ən üstün əbədi həqiqətdir; həmişə olmuş və olacaqdır.

**وَ لَمْ يَكُنْ لَهُ كُفُواً أَحَدٌ – Və ləm yəkul-ləhu kufuvən əhəd.**

Onun tayı-bərabəri yoxdur.

Onu kiməsə bənzətmək olmaz; kimisə Ona bərabər tutmaq olmaz; Onun bütün varlıq aləmindən ibarət olan nüfuz və fərman dairəsini Onunla başqa bir şəxsin arasında bölmək olmaz; dünyanın bir hissəsini, yaxud insan həyatının bir sahəsini Ondan bilib, bir hssəsini başqa şəxslərə, canlı-cansız tanrılara, yaxud tanrılıq və hakimiyyət iddiasında olanlara vermək olmaz.

Bu surə adından göründüyü kimi, doğrudan da tövhid surəsidir. Bütün Quranda və yüzlərlə ayədə müxtəlif tonlarla və sözlərlə söylənmiş tövhid ideyası bu surədə qısa formada o dövrün xurafatçı və müşrik etiqadlarına hesablanmış şəkildə hər bir tanrılıq iddiasını inkar edən aydınlıqla son dəfə deyilmişdir.

Bu surə bir tərəfdən müsəlmanlara və bütün düyadakılara İslamın baxışından pərəstişə və sitayişə layiq olan Allahı tanıtdırır. Bir olmayan, dünyanın məxluqları arasında yüzlərlə və minlərlə bənzəri tapılan bir şey Rəbb və Allah olmağa layiq deyil. Özünün yaranması və yaşaması üçün başqa bir varlığın köməyinə ehtiyacı olan güclü və güc bəşərə məcburən verilə bilməz və verilməməlidir. Zəif, ehtiyaclı, yaradılmış və məhv olası tanrılar qarşısında təzim göstərən şəxs özünün insan məqamını tapdayır, özünü və insaniyyəti geriyə sürükləyir. Bu, Tövhid surəsinin təsdiq cəhətidir. O, insanın məbudu olan Allahın nişanələrini və xüsusiyyətlərini göstərir, tarixin tanrılarının gücsüz olduğunu isbat edir.

Digər tərəfdən, Allaha pərəstiş və İslamı qəbul edənlərə xəbərdarlıq edir ki, Allahın zatı və atributları barədə özünü şübhəli əqli maraqlara bulaşdırmasın. Allahı, yalançı iddiaları müqəddəs Rəbb məqamından qovan qısa sözlə çağırsınlar və yad etsinlər. Fəlsəfəbazlıqlara və zehniyyətlərə qərq olmaq əvəzinə tövhid etiqadından irəli gələn öhdəliklər barədə düşünsünlər.

İmam Əli ibn Hüseyndən (ə) nəql olunan hədisə əsasən, Allah-Taala gələcəkdə hər şeylə maraqlanan insanların olacağını bilirdi. Bu səbəbdən Tövhid surəsini və Hədid surəsinin bəzi ayələrini (ilk altı ayəsini) nazil etdi ki, Allahın zatı və atributlarını araşdırmaq üçün icazə verilən həddi müəyyənləşdirsin. Kim bu həddən artığı ilə maraqlansa, özünü həlak etmişdir.[15]

"Qul huvəllah" surəsi sanki namaz qılana belə deyir: Allah uca və ən üstün bir qüvvədir, zati olaraq ehtiyacsızdır, doğmayıb və doğulmayıb, bənzərsiz və bərabərsizdir və bu qədər kifayətdir. Allahın elm, görənlik, hikmət və digər xüsusiyyətlərinin, bilinməsinin və tanınmasının müsəlmana lazım olan, onun həyatının formalaşmasında və ruhi yüksəlişində təsirli olan qədəri Quranın digər ayələrində söylənmişdir.

Allahın zatında və Onun xüsusiyyətlərinin necəliyində bundan dərinə getmə. Daha artıq bilgini əməllə əldə edəcəksən. Zehni cəhətdən araşdırmaqla və dərinə getməklə daha çox bilgi toplamağa çalışma. Ruhun daxilində saflıq və ruhanilik yaratmaqla və tövhiddən irəli gələn əməlləri yerinə yetirməklə bilgi toplamağa çalış.

...Peyğəmbərlər, siddiqlər, Allahın doğruçu bəndələri, sadiq və arif təkallahlılar belə olmuşlar.

[15]"Əl-Kafi", c. 1, səh. 91. Sitatın götrüldüyü əsər: "Nur əs-səqəleyn", c. 5, səh. 706.

## Dörd zikr

Rüku və səcdənin zikrinin tərcüməsinə başlamazdan öncə namazın üçüncü və dördüncü rəkətlərində ayaq üstə təkrar edilməsi lazım olan cümlələri izah edəcəyik. Bu cümlələr dörd zikrdən ibarətdir və Allahın dörd xüsusiyyətini bəyan edir:

**سبحان الله (Subhanəllah)** Allah pak və eyibsizdir;

**و الحمد لله (Vəlhəmdu lillah)** Həmd və səna Allaha məxsusdur;

**و لا اله الا الله (Və la ilahə illəllah)** Allahdan başqa heç bir tanrı yoxdur;

**و الله اكبر (Vallahu əkbər)** Allah ən böyükdür.

Bu dörd xüsusiyyəti bilmək tövhid haqqında düzgün və kamil təsəvvürün formalaşmasında dərin təsirə malikdir. Bu dörd xüsusiyyətin hər biri tövhid etiqadının bir cəhətini göstərir.

Bu cümləleri təkrarlamaq yalnız ona görə vacib deyil ki, insanın zehin bilgisini və məlumatını artırsın. Əslində Allahın sifətlərini və xüsusiyyətlərini bilməyin, Allah zikrini təkrar etməyin ən böyük faydası insanda hərəkət və məsuliyyət hissi yaratmaq və onu öyrəndiyi həqiqətə uyğun vəzifəyə yönəltmək olmalıdır. Ümumiyyətlə, İslam etiqadları zehindən xaricdə və real həyatda əmələ və hərəkətə səbəb olmalıdır. Çünki bu etiqadlar yalnız abstrakt və zehni cəhətlərinə görə mötəbər deyil, daha çox insanların həyatına yönəldiyindən, fərdin və cəmiyyətin həyatına və əməlinə hesablandığından İslamda mötəbər tanınırlar. Düzdür, hər bir İslam etiqadı bir həqiqəti bilməkdir, lakin İslamda yalnız o etiqadlar zəruri və lazım sayılmışdır ki, onları qəbul etməklə insan üçün öhdəlik yaransın, onun üzərinə yeni vəzifə və məsuliyyət qoyulsun.

Allahın varlığına etiqad belədir. Allahın olmasına və olmamasına editaqın hər biri müəyyən bir həyat və əməl forması vücuda gətirir. Doğrudan da Allahın varlığına editaqı olan şəxs və cəmiyyət müəyyən bir formada yaşayır, bu həqiqəti inkar edən fərd və cəmiyyət isə başqa formada.

Əgər insan onu və dünyanı iradəli, şüurlu və hikmətli bir qüvvənin yaratdığına etiqad bəsləsə, bu yaranışda bir məqsədin olmasına mütləq inanacaq, qəbul edəcək ki, o bu məqsədə çatmaqda rola malikdir və məsuliyyət daşıyır. Həmin öhdəlik və məsuliyyət hissi onu işə, fəaliyyətə, hərəkətə və ağır işləri qəbul etməyə vadar edir və o, bunların hamısını sevinc və razılıqla qarşılayır.

Ölümdən sorakı həyata, nübüvvətə, imamətə və digər bu kimi etiqadlara iman da belədir. Onların hər biri etiqadlı şəxsin üzərinə müəyyən məsuliyyət və vəzifələr qoyur, ümumi şəkildə onun həyat proqramını və ümumi gediş xəttini müəyyənləşdirir.

Əgər özünü bu ideoloji prinsiplərə etiqadlı bilənlərin real aləmdə bu etiqadlardan xəbərsiz və onlara inamsız olan şəxslərlə eyni tərzdə yaşadığı müşahidə olunursa, bu, düzgün məlumatın olmamasına, yaxud onların imanının köksüz olmasına görədir. Həssas mövqelərdə və həyatın dönüş nöqtələrində həqiqi etiqadlıların sırası məlumatsız və fürsət axtaran təqlidçilərdən ayrılır.

İndi isə bu dörd zikrin məzmununa qayıdırıq:

**سبحان الله (Subhanəllah)**

Allah nöqsansız və pakdır. Şəriki olmaqdan, zülmdən, məxluq olmaqdan, hikmətin və məsləhətin ziddinə bir iş görməkdən, yaranmışlarda mövcud olan bütün nöqsanlardan, çatışmazlıqlardan, çirkinliklərdən, məxluq və mümkün varlıq olmanın nəticəsi olan bütün xüsusiyyətlərdən uzaqdır.

Namaz qılan bu cümləni deyərək və Allahın bu xüsusiyyətini yada salaraq hansı varlığın və sitayişə layiq olan hansı zatın qarşısında təzim göstərdiyini anlayır və xatırlayır. O, mütləq gözəllik və kamillik

qarşısında təzim və təvazökarlıq etdiyini hiss edir. Kimsə mütləq paklıq, yaxşılıq və gözəlliyə hörmət bildirdiyinə görə həqarət hissi keçirərmi?!

İslamın namazı belə bir şeydir; gözəllik və kamilliyin tükənməz okeanı qarşısında təvazökarlıq və təzimdir, insanı başıaşağı edən, onun insanlıq məqamını və başucalığını azaldan bir təzim deyil, onu təhqir və xar edən sitayiş deyil. Məgər insan gözəlliyi və kamalı dərk edən və axtaran varliq deyil?! Deməli, mütləq kamal qarşısında torpağa düşməsi və ona malik olan varlığa bütün vücudu ilə pərəstiş və sitayiş etməsi təbiidir. Bu pərəstiş və sitayiş onu kamal, yaxşılıq və gözəllik yoluna çəkir, hərəkətini bu istiqamətə və bu səmtə yönəldir.

İslamın namazını və ibadətini insanın xarlığına, sınmasına və başıaşağı olmasına səbəb bilən, onu maddi qüvvələrin sitayişi ilə müqayisə edən şəxslər bu zərif məqamı görməmiş və bilməmişlər ki, yaxşılığa və paklığa sitayiş və təzim etməyin özü yaxşılığın və paklığın ən güclü səbəblərindəndir.

Bu, Allahın paklığını yada salan "Subhanəllah" zikrinin bizə öyrətdiyi məsələdir.

**و الحمد لله (Vəlhəmdu lillah)**

Bəşər öz həyatının məşəqqətli tarixi boyu həmişə müxtəlif imkanlara görə, kiçik və böyük imtiyazlar almağa görə, bir neçə gün artıq yaşamaq və hətta çoxusunun çörək yeyib ölməməyə görə yaranışda onunla bərabər olan, əsl mahiyyətinin ondan heç bir artığı və üstünlüyü olmayan şəxslər qarşısında sitayiş və səna söyləmiş, öz cismini və canını nemət sahiblərinə təslim etmişdir, nemətin onu yeyənlərə aid olduğunu düşündüyünə görə onların köləliyini qəbul etmişdir; cisim köləliyini, yaxud ruh və düçüncə köləliyini.

Bütün təşəkkürlərin və sitayişlərin Allaha məxsus olduğunu yada salmaq nemətlərin də Allah tərəfindən olduğunu xatırladır. Deməli, əslində heç kim bir şeyə malik deyil ki, o yolla kimisə öz əsiri, itaətkarı və qulu edə bilsin, buna haqqı çatsın. Zəif ruhlara, sehrlənmiş ürəklərə və nemətə məftun olan gözlərə də öyrədir ki, dövlətlilərin və dünya

ərbablarının dəyərsiz mərhəmətini və bəxşişini saya saymasınlar, onlardan bilməsinlər, onların qarşısında köləliyə razı olmasınlar, ondan məhrum olmağa dözməsinlər, ona malik olanı və mənimsəyini qəsb edən və təcavüzkar bilsinlər.

**و لا اله الا الله (Və la ilahə illəllah)**

Bu, İslamın şüarı, bu məktəbin dünyagörüşü və ideologiyasının tam təsviridir. Bu şüarda bir inkar və bir təsdiq var.

Əvvəlcə bütün tağut və qeyri-ilahi qüvvələri inkar edir, özünü hər bir şeytan qüvəssinin boyunduruğundan xilas edir, onu hər hansı bir şəkildə hər hansı bir yola sürükləyən hər bir əli kəsir. Allahdan başqa hər bir gücü, ilahi quruluşdan başqa hər bir quruluşu, Allahın bəyəndiyi məqsədlərdən başqa hər bir məqsədi kənara tullayır və bu möhtəşəm inkarla özünü bütün xarlıqlardan, rəzilliklərdən, əsarətlərdən və boyunduruqlardan azad edir. Sonra Allahın fərmanını və iradəsini – dərk və icra edilməsinin yalnız ilahi bir quruluş formasında, yəni həqiqi mənada bir İslam cəmiyyətində mümkün olduğu formada öz vücuduna hakim, başqa heç bir bəndəliklə uyğun olmayan Allah bəndəliyini qəbul edir.

Allah bəndəliyi – yəni həyatı Allahın hikmətli fərmanına uyğunlaşdırmaq, əsas xətləri Allahın əmrinə əsasən təsvir olunmuş ilahi quruluşda yaşamaq, yaxud var gücü və bütün imkanları ilə belə bir quruluş, belə bir düzən yaratmağa çalışmaq.

Bəşər təfəkkürü üzərində qurulmuş digər quruluşlar cəhalətdən, səhv düşüncədən və bəzən qərəzlərdən uzaq olmadığına görə, bəşəri uğurlu edib, onu ideal insan kamalına çatdıra bilməz.

Allahın hikmətindən və rəhmətindən qaynaqlandığına, insan ehtiyacları haqda məlumatlarla tanışlığına və bu ehtiyacları təmin edən proqramlara malik olduğuna görə, yalnız ilahi cəmiyyət və ilahi quruluş adı insan olan bu varlığın inkişafı üçün köməkçi və münasib mühit ola bilər.

Biz digər quruluşların düşməni deyilik, onlara ürək yandırırıq. Bu, peyğəmbərlərin sözüdür. Allahın peyğəmbərləri bəşərin qayğıkeş atalarıdır. Bəşərin yaşamalı olduğu evləri quranlara, onların layihəsini hazırlayanlara, yəni ictimai quruluşların banilərinə və müəlliflərinə öyrədir və nəsihət verir ki, bəşər ilahi və tövhid quruluşundan başqa bir yolla uğur əldə etməyib və etməyəcək. Tarix sübuta yetirmişdir, biz də qeyri-ilahi quruluşlarda insaniyyətin nə çəkdiyini, insanların necə insan formasından çıxdığını və hansı vəziyyətə düşdüyünü görmüşük və görürük.

**و الله اكبر (Vallahu əkbər)**

Bu inkarlardan sonra hələ cahiliyyətin reallıqları ilə əlbəyaxa olan adi bir insan qürbət və qorxu hissi keçirir, özünü yalqız görür. O bir tərəfdən öz baxışı ilə bu ana qədər möhkəm bildiyi bünövrələrin uçmaq halında olduğunu müşahidə edir, amma digər tərəfdən cahiliyyət bir dağ kimi əzəməti ilə özünü ona göstərir, gözünü qamaşdırmağa çalışır, onun inkar etdikləri öz varlıqlarını onun gözü qarşısına çıxarır, onu vahiməyə salırlar. Elə həmin anda da deyir: Allah hər şeydən və hər bir kəsdən, bütün qüvvələrdən, onların gücündən və vəsfə sığan hər bir şeydan daha böyükdür. İstər təbiətdə, istər tarixdə dünyanın yaradılış qanunlarının müəllifi Odur. Deməli, bu qanunlarla uyğunluğun nəticəsi olan son qələbə yalnız Onun fərmanına boyun əyməklə əldə edilir. Bəşəriyyətin tarixi çəkişməsində Onun bəndələri və əmrinə tabe olanlar yeganə qaliblər olacaqlar.

Həzrət Məhəmməd (s) bu həqiqəti yaxşı bilirdi. Bütün vücudu ilə ona imanı vardı, onu duyurdu. Buna görə təkbaşına Məkkənin bütün azğınları və hətta bütün dünya qarşısında dayandı. Onun səviyyəsində olan dəyərli bir insandan gözlənildiyi kimi, elə möhkəm dayandı ki, bəşərin azğın karvanını tağut güclərin rüsvayçı ardıcıllığından xilas edib, təkamülə sarı gedən fitrət yoluna çıxardı.

Bəşərin yalançı gücləri qarşısında özünü kiçik, zəif və iradəsiz görən bir şəxs ən üstün güclünün Allah olduğunu anlasa və bilsə, qəlbi

dinclik və aramlıq tapar, daxilində görünməmiş bir qüvvə şölə saçar, və bu onu ən üstün, ən güclü edər.

Namazın üçüncü və dördüncü rəkətlərində ayaq üstə təkrar olunan dörd cümlənin qısa məzmunu bu idi.

## Rüku

Namaz qılan qiraətdən[16] sonra rükuya gedir, yəni Allahın – yaxşı və əzəmətli xislətlərin üfüqündə, insan düşüncəsinin fövqündə duran varlığa təzim məqsədilə baş əyir.

Rükü insanın özündən üstün bildiyi güc qarşısında kiçilməsidir. Müsəlman Allahı ən üstün güc bildiyindən onun qarşısında rüku edir. Allahdan başqa heç bir varlığı öz insanlığından üstün və uca bilmədiyi üçün başqa heç kəsin və heç bir şeyin qarşısında baş əymir. Öz bədənini Allah qarşısında təvazökar formaya saldığı halda dil açıb Ona həmd, sitayiş edir və əzəmətini xatırlayır:

**سبحان ربی العظیم و بحمده – Subhanə Rəbbiyəl-əzimi və bihəmdih.**[17]

Mənim Böyük Allahım pak və eyibsizdir və mən Ona sitayiş edirəm.

Uyğun sözlə yerinə yetirilən bu hərəkət namaz qılana, həmçinin bu halı görən digərlərinə onun Allah qarşısındakı bəndəliyini göstərir. Allahın bəndəsi Allahdan qeyrisinin bəndəsi olmadığından, öz başucalığını və Allahdan qeyrisinin köləliyindən azad olduğunu aşıq şəkildə elan edir.

---

[16] Məqsəd ayaq üstə deyilən sözlərdir: birinci və ikinci rəkətdə Həmd və surə, üçüncü və dördüncü rəkətlərdə isə dörd zikr, yaxud təkcə Həmd surəsi.

[17] Bu zikrin yerinə üç dəfə "Subhanəllah" da demək olar.

## Səcdə

Rükudan qalxdıqdan sonra daha təvazökar təzimə hazırlıq məqsədilə yerə oturur.

Alını torpağa qoymaq insan kiçilməsinin ən üstün həddinin əlamətidir. Namaz qılan təvazökarlığın bu həddinə yalnız Allahı layiq bilir. Çünki Allah qarşısında təzim mütləq yaxşılıq və gözəllik qarşısında təzimdir. O bu işi Allahdan başqa hər hansı şəxsin və hər hansı şeyin qarşısında haram və bəyənilməz sayır. Çünki varlıq bazarının ən dəyərli məhsulu olan insaniyyət gövhəri bununla sınır, insan xar olur.

Alını torpağa qoyduğu və özünün Allah əzəmətinə qərq olduğunu gördüyü halda dilini də bu hala uyğunlaşdırır və əslində öz əməlini təvsir edən bir zikr söyləyir:

**سبحان ربى الاعلى و بحمده - Subhanə Rəbbiyəl-əla və bihəmdih.**

Mənim Uca Rəbbim pak və eyibsizdir və mən Ona sitayiş edirəm[18].

Ən Uca Tanrı, Pak və Eyibsiz Allah! İnsan yalnız belə bir varlığın qarşısında sitayiş edə və alnını torpağa qoya bilər.

Deməli, namazın səcdəsi nöqsanlı, zəif və dəyərsiz bir varlıq qarşısında, zəif bütlər və puç qüvvələr qarşısında torpağa düşmək kimi deyil, ən üstün, ən pak və ən izzətli varlıq qarşısında torpağa düşməkdir.

Namaz qılan bu hərəkəti ilə əməli surətdə özünün hikmətli və görən Allaha itaətkarlığını elan edir, hamıdan öncə bu təslimçiliyi və itaətkarlığı özünə təlqin edir və xatırladır. Bildiyiniz kimi, Allah qarşısında mütləq bəndəliyi qəbul etmək başqa hər bir kəsin və hər bir

---

[18] Bu zikrin yerinə üç dəfə "Subhanəllah" da demək olar.

şeyin bəndəlik zəncirini qırır, ona məcbur edilən rəzalətlərdən və xarlıqlardan xilas edir.

Bu iki zikrdən – rüku və səcdələrin zikrindən gözlənilən ən mühüm təsir odur ki, namaz qılana kimin qarşısında təslim olmalı, kiçilməli və sitayiş etməli olduğunu öyrədir. Bu, yuxarıdakı işlərin hamısının Allahdan başqa hər bir şeyin və hər bir şəxsin qarşısında inkar edilməsi deməkdir. İmam dilindən nəql olunan bu hədis bəlkə də sözügedən məsələyə işarə vurur: "İnsanın Allaha ən yaxın halı səcdə halıdır".[19]

---

[19] "Səfinə əl-Bihar", c. 1, "Səcdə" sözü.

## Təşəhhüd

Namaz qılan bütün namazların ikinci və son rəkətlərində ikinci səcdədən qalxdıqdan sonra oturduğu halda hər biri dinin bəzi həqiqətlərini söyləyən üç cümlə deyir. Həmin cümlələrlə birgə bu əməli təşəhhüd adlandırırlar.

Birinci cümlədə dünyanın Sahibinin birliyinə şəhadət verir:

**أشهد ان لا اله الا الله – Əşhədu əlla ilahə illəllah.**

Şəhadət verirəm ki, Allahdan başqa heç bir tanrı yoxdur.

Sonra belə bir təkid göstərir:

**وحده - Vəhdəhu**

Yalnız O (dünyadakıların tanrısıdır).

Daha sonra isə başqa formada təkrar edir:

**لا شریک له – La şərikə ləh.**

Onun şəriki yoxdur.

İnsanı özünə qul və müti etmiş hər bir şəxs və hər bir şey onun tanrısıdır. Heyvani həvəs və meyllər, bəşəri ehtiraslar və tamahkarlıqlar, ictimai sistemlər, müqavilələr, onların müəllifləri və başçıları - bunların hər biri insanı bir növ xidmətə vadar və hər biri ona bir növ tanrılıq edirlər.[20]

[20]Bax: Casiyə/23: "(Ey Peyğəmbər!) Nəfsini özünə tanrı edən kimsəni gördünmü?"; Tövbə/31: "Onlar Allahı qoyub alimlərini və rahiblərini, Məryəm oğlu Məsihi özlərinə tanrılar qəbul etdilər. Halbuki onlara ancaq bir olan Allaha ibadət etmək əmr olunmuşdu"; Qəsəs/38: "Firon dedi: "Ey əyanlar! Mən sizin üçün özümdən başqa

"La ilahə illəllah" sözü bütün bu hakimiyyətlərin inkarı və təşəhhüd namaz qılanın bu inkara şəhadət verməsidir. Yəni namaz qılan qəbul edir və öhdəlik götürür ki, ona hakimiyyət və tanrılıq haqqı olan yalnız Yeganə Allahdır və onların heç birinin onun üzərində heç bir hökmranlıq hüququ yoxdur.

Bunu qəbul edən şəxsin özünün də heç bir başqa varlığı – insanı, heyvanı, mələyi, cismi, öz nəfsini və ehtiraslarını tanrı kimi qəbul etməyə, onun itaətinə və bəndəliyinə razılaşmağa haqqı ola bilməz. Bu sözün mənası o deyil ki, təkallahlı insan heç vaxt ictimai öhdəlik götürmür, heç bir qanunu, yaxud hakimi qəbul etmir. Çox aydındır ki, insanın mahiyyətinə əsasən, ictimai yaşayış üçün öhdəliklər mütləq lazımdır. Mənası budur ki, Allahın fərmanından qaynaqlanmayan heç bir hömkranlığı və quruluşu qəbul etmir və ona dözmür. Özünün fərdi və ictimai həyatında Allahın fərmanına qulaq asır. Bəzən Allahın fərmanı ilə və Allahın cəmiyyətin idarəsi üçün təyin etdiyi fərmanın tələbinə uyğun olaraq, kimlərəsə itaət etməsi və öhdəliklərə boyun əyməsi lazım olur. Deməli, itaət və öhdəlik ümumi yaşayışın xarakterinə görə təkallahlı insanın həyatından da ayrılmır. Lakin bu itaət özünün azğın nəfsinin istəklərinə, yaxud onun özü kimi olan insanların təkəbbürlülüyünə və eqoistliyinə itaət deyil, Görən və Hikmətli Allahın iradəsinə və fərmanına itaətdir. Çünki icrası lazım olan qanunları və itaəti vacib lazım olan hakimləri müəyyən edən Odur. Onlar da Onun bəndələrinə yalnız Onun fərmanı çərçivəsində fərman verirlər.[21]

Quranın bu əmri həmin həqiqət barədədir:

"Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar (əmr) sahiblərinə itaət edin!"[22]

---

bir tanrı olduğunu bilmirəm"; "Bihar əl-ənvar", c. 77, səh.99: "Onların tanrıları qarınlarıdır".

[21] Bax: Nisa/80: "Peyğəmbərə itaət edən kimsə, şübhəsiz ki, Allaha itaət etmiş olur"; Maidə/55: "Sizin vəliniz (rəhbəriniz, haminiz) ancaq Allah, Onun Peyğəmbəri və iman gətirənlərdir. O kəslər ki, namaz qılır və rükuda olduqları halda zəkat verirlər"; "əl-Kafi", c. 7, səh.412; "Nüzhə əl-kiram", səh. 397.

[22] Nisa/59.

Bəlkə bunu nəzərə alaraq namaz qılan onun arxasınca - təşəhhüdün ikinci cümləsində belə deyir:

**و أشهد أن محمدا عبده و رسوله – Və əşhədu ənnə Muhəmmədən əbduhu və rəsuluh.**

Və şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi və elçisidir.

Məhəmmədi (s) Allahın elçisi kimi qəbul etmək - onun ilahi nümayəndəliyini və xilafətini qəbul etməkdir. Yəni Allahın yolunu Məhəmmədin (s) yolunda axtarmaq və Allahın fərmanını onun seçdiyi bəndəsindən almaq.

Allahın bəyəndiyi yolu təyin edərkən səhvə düşən allahpərəstlər çoxdur. Məhəmmədi (s) Allahın peyğəmbəri kimi tanıtdırmaq və qəbul etmək Allaha pərəstiş edən insanın həyatda göstərməli olduğu fəaliyyətini və hərəkətini müəyyənləşdirir, ona istiqamət verir. Belə olduqda onun Allaha pərəstiş iddiası doğru olacaq.

Bu cümlədə Məhəmmədin (s) bəndəliyi üzərində təkid göstərilmişdir. "Əbduhu" (bəndəsi) sözünü "rəsuluhu" (elçisi) sözündən önə keçirməklə sanki ən mühüm İslam dəyərini tanıtdırmaq istəmişlər. Doğrudan da belədir. Bütün insani dəyərlər Allahın həqiqi və ixlaslı bəndəsi olmaqda xülasələnir. Bu meydanda kim daha öndədirsə, insaniyyət tərəzisində çəkisi digərlərindən daha ağırdır.

Allah bəndəliyi məfhumu ilə tanış olan şəxs üçün bu sözün sübuta ehtiyacı yoxdur. Əgər Allah bəndəliyi tükənməz hikmət, bəsirət, rəhmət, yaxşılıq və gözəllik qarşısında təzim göstərmək, nəfsin bəndəliyindən və qeyrisinin köləliyindən azad olmaq deməkdirsə, hansı dəyəri ondan üstün hesab etmək olar?! Məgər bütün pisliklər, alçaqlıqlar, bədbəxtliklər, rəzalətlət, namərdliklər, bütün qaranlıq və zülmətlər insanın nəfs, yaxud iddialı insanların tüğyanı qarşısında köləliyindən törəmir?! Məgər Allah bəndəliyi hər bir başqanın bəndəliyinin kökünü yandırıb məhv etmir?!

Təşəhhüdün ilk iki cümləsində mövcud olan zərif və dəqiq məqam budur ki, tövhid və nübüvvəti xatırlamaq, namaz qılan tərəfindən bir

şəhadətlə baş verir. O, Allahın birliyinə, Məhəmmədin (s) də bəndə və elçi olmasına şəhadət verir. Bu şəhadət əslində bu iki etiqaddan irəli gələn bütün öhdəlikləri qəbul etmək deməkdir. Sanki namaz qılan bu şəhadətlə demək istəyir ki, mən bu iki etiqaddan - yəni tövhid və nübüvvətdən irəli gələn bütün vəzifələri boynuma götürürəm. Quru bilməyin, ardınca öhdəlik gəlməyən bilməyin, əmələ səbəb olmayan inamın, İslama görə, dəyəri yoxdur. Bir həqiqətə şəhadət vermək onun üzərində axıra qədər dayanmaq və o həqiqəti bilməyin yaratdığı bütün öhdəlikləri və əməlləri qəbul etməkdir; xalis etiqaddan, fəal, müsbət və artan imandan yaranan bir qəbulluq. Deməli, namazın təşəhhüdü əslində namaz qılanın Allahla və Onun elçisi ilə beyətini yeniləməsidir.

Təşəhhüdün üçüncü cümləsi isə bir dilək və duadır.

**ألللهم صل على محمد و آل محمد – Allahummə səlli əla Muhəmmədin və ali- Muhəmməd.**

İlahi, Məhəmmədə və Məhəmmədin ailəsinə salam və salavat göndər!

Məhəmməd (s) və onun pak ailəsi bu məktəbin kamil nümunələridir. Namaz qılan dua dili ilə bu nümunələri öz yaddaşında canlandırır və onlara salam göndərməklə özünün onlarla mənəvi əlaqəsini bərpa edir.

Hər bir məktəbin ardıcılları, o məktəbin real nümunələrini öz qarşılarında görməsələr, yolu səhv gedib azmaları çox mümkündür. Real nümunələri təqdim etmək tarix boyu peyğəmbərlərin məktəblərinin yaşamasını təmin etmişdir. Tarix insanın uca və səadətli həyatını təmin etmək üçün layihə və planlar cızmış, ideal cəmiyyətləri izah etmiş, kitablar və yazılar yazmış çoxlu mütəfəkkirləri xatırlayır. Lakin peyğəmbərlər filosofcasına mübahisələr etmədən öz sözlərini əməldə göstərmiş, özlərindən və özlərinə ilk iman gətirənlərdən yeni insanlar yetişdirmiş və onların çiyni üzərində özlərinin ideal quruluşlarının sütunlarını ucaltmışlar. Məhz buna görə peyğəmbərlərin məktəbi

yaşamış, həmin mütəfəkkirlərin və filosofların planlarından isə kitab səhifəsindən başqa bir şey qalmamışdır.

Namaz qılan bu məktəbin ən seçilmiş nümunələri və parlaq simaları olan Məhəmmədə (s) və onun ailəsinə səmimi şəkildə dua edir, bir ömür bu məktəb əsasında yaşamış və tarixə İslam insanı modelini təqdim etmiş şəxslərə salam göndərir, Allahdan onlar üçün salam və rəhmət diləyir, güclü cazibə qüvvəsi kimi onu öz yoluna və çalışıb-axtardığı məqsədə sarı çəkən şəxslərlə mənəvi əlaqəsini daha möhkəm və daha güclü edir.

Məhəmmədə (s) və onun ailəsinə salavat İslamın seçilmiş və nümunəvi şəxslərinin simasını təcəssüm etdirir. Bu simaları təcəssüm və nümayiş etdirməklə müsəlman getməli olduğu yolu həmişə tanıya və o yolda hərəkətə hazır ola bilər.

## Salam

Namazın sonu üç salamdan ibarətdir. Sözsüz ki, yenə də Allahı yad etməklə və Onun adı ilə.[23]

Deməli, namaz Allahın adı ilə başlayır və Allahın adı ilə sona çatır. Bu başlanğıcın və sonun arasındakılar da bütünlüklə Allahın adı və Allah zikridir. Əgər bir cümlədə və bir zikrdə Peyğəmbərin (s), yaxud onun ailəsinin adı çəkilirsə, o da Allahı yad etmək, Onun lütf və mərhəmətindən kömək diləmək formasındadır.

Birinci cümlə namaz qılanın Allahın rəsuluna göndərdiyi salam və Allahdan o seçilmiş bəndə üçün rəhmət istəyidir:

**ألسلام عليک ايها النبى و رحمة الله و برکاته – Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh.**

Salam olsun sənə, ey Peyğəmbər, Allahın rəhməti və bərəkətləri olsun sənə!

Peyğəmbər (s) İslamın – yəni indi namaz qılanın məşğul olduğu fəaliyyət və hərəkətlər məcmusunun banisidir. Tövhid fəryadını o ucaltdı, onunla dünyanı alt-üst etdi, həmişəlik olaraq insanın layiqli həyatının əsasını qoydu. İslam adamının və belə bir insan yetişdirə bilən cəmiyyətin əsl simasının xətlərini təsvir edən o idi. İndi namaz qılan həmin şüarı öz namazı ilə, onun həyatdakı və öz dövründəki dərsləri və göstərişləri ilə əks etdirir, həmin ideal cəmiyyətə və həmin uca insanın formalaşmasına sarı bir addım atır. Deməli, bu əməlin sonunda onu bu yola çıxarmış, bu yolda ona bələdçilik etmiş Peyğəmbərini (s) və

[23] Bu üç salamdan yalnız üçüncüsünü demək olar. Digər iki salam müstəhəbdir.

rəhbərini salamla yad etməsi və bu dillə onun yanında və yolunda olmasını elan etməsi əbəs deyil.

İkinci cümlədə namaz qılan özünə, səngər yoldaşlarına və Allahın bütün saleh bəndələrinə salam verir:

**ألسلام علينا و على عباد الله الصالحين - Əssəlamu ələyna və əla ibadillahis-salihin.**

Salam olsun bizə və Allahın saleh bəndələrinə!

Beləliklə, Allahın saleh bəndələrinin xatirəsini öz beynində canlandırır, onların varlığını özünün ürəklənməsinə səbəb edir.

Günahların, pisliklərin, çirkinliklərin, alçaqlıqların, heyvanlıqların, zülmlərin, zülmü qəbul etmələrin, natəmizliklərin və napaklıqların hər yeri bürüdüyü və hər kəsi qərq etdiyi bir dünyada, ağıllı və sayıq insanın gözündə hər şeyin insaniyyətin iflasından xəbər verdiyi və bərbəzəklərin süni rəng və işıltı formasında pozğunluqların və düşkünlüklərin üzərində parladığı bir mühitdə, haqq və ədalət iddialarının eqoistliklərin və dünyagirliklərin rüsvayçılığını örtə bilmədiyi, Əlinin, Hüseynin və Sadiqin (ə) boş yerini Müaviyənin, Yezidin və Mənsurun aldadıcı hay-küyləri ilə gizlədən bir dünyada, qısası, şeytanın layiqli davamçılarının Allahın saleh bəndələrinin yerini tutduğu bir dövrdə yaxşılığa və düzgünlüyə real gözlə baxıb onu gözləmək olarmı?! İnsan övladlarından, günahdan və çirkinlikdən, uğursuzluqdan və haqsızlıqdan başqa bir şey gözləmək olarmı?! Etiraf etmək lazımdır ki, əgər olarsa da, asanlıqla olmaz.

Belə bir şəraitdə Allahın saleh bəndələrinə salam vermək qəmgin və məyus ürəyin köməyinə çatır, zülmətlər içində bir aydınlıq və işıq mələyinə bənzəyir, namaz qılana dostlarının və səngər yoldaşlarının olması barədə müjdə verir. Ona deyir ki, yalqız deyilsən, bu quru səhrada səmərəli və davamlı bir tumurcuq tapmaq olar. Necə ki, tarixdə həmişə azğın cəmiyyətlər güclü iradələrin və dəyərli insanların doğulduğu yer olmuşdur. Onlar nəhayət, yeni dünyanın baniləri və yeni həyatın əsasını qoyanlar olmuşlar. İndi də Allahın tarixdəki qanununa

uyğun olaraq həmin işıq və yaxşılıq yaradan qüvvələr bu qaranlıq və çirkin dünyanın daxilində çalışmaqda və fəaliyyətdədirlər. Bəli, saleh insanlar – yaxşı və layiqli formada Allaha bəndəlik edən, əmrinə itaət göstərən şəxslər tağutlara qarşı çıxmışlar.

Bu saleh bəndələr kimlərdir və haradadırlar? Onlardan dərs alıb onlarla addımlamaq lazım deyil?! Lazımdır. Namaz qılan bu salehlərin yanında yer tutub, özünə və onlara bir cümlədə salam verdikdə (salam olsun bizə və Allahın saleh bəndələrinə) qürur, başucalığı və inam onun qəlbinə şölə saçır, həqiqətən onların sırasında və onların yanında olmağa çalışır. Onlarla ayaqlaşıb, irəliləyə bilməməsindən xəcalət hissi keçirir və bu, ona yeni öhdəlik və vəzifə bəxş edir.

Saleh bəndələr necədirlər və saleh olmaları nəyə görədir? Saleh olmaq təkcə namaz qılmağa görə deyil. Saleh insan odur ki, ağır ilahi vəzifələrin öhdəsindən gəlsin və "Allah bəndəsi" adına uyğun əməl etsin; sinifdəki yaxşı bir şagird kimi.

Nəhayət, üçüncü cümlədə namaz qılan həmin saleh bəndələrə - (mələklərə, yaxud namaz qılanlara) müraciətlə deyir:

**ألسلام عليكم و رحمة الله و بركاته - Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh.**

Salam olsun sizə! Allahın rəhməti və bərəkətləri olsun sizə!

Beləliklə, yenidən saleh və ləyaqətli olmağı (yaxud mələk xislətli olmağı, yaxud digər namaz qılanlarla əlaqəni) yadına salır, müraciət etdiyi əzizlərini xeyir-dua ilə yad edir və namazı bitirir.